


Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur.





Dövlət idarəetmə islahatları strateji idarəetmə siyasətinə uyğun aparılır.



# ABMA

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları

# HESABAT → 2022

# Mündəricat


01 • Məlumat 02-04

02 • Assosiasiyalar 05-08

03 • Struktur 09-10

04 • Xidmətlər 11-14

05 • Beynəlxalq əməkdaşlıq 15-22

06 • Fəaliyyət 23-30


ABMA

# Məlumat 01


BƏLƏDİYYƏ ORQANLARININ FƏALİYYƏTİ
Bələdiyyə orqanlarının MALİYYƏ MƏNBƏYİ
Reklamlardan daxil olan vergilər
Fiziki şəxslərdən daxil olan vergilər
Ödənişli avtodayanacaqlardan daxil olan vəsaitlər
Marketlərdən daxil olan vergilər
Bələdiyyə orqanlarının İŞİ
Bayram tədbirləri
Su borularının təmiri
Abadlıq işləri
Zibillərin daşınması
Yol təmiri

# Bələdiyyələr



1999-cu ildə ilk bələdiyyə seçkiləri keçirilmiş və seçkilər nəticəsində ümumilikdə ölkəmizdə 2700-dən çox bələdiyyə yaradılmışdır

## Bələdiyyə seçkiləri:

| S/S | Seçki tarixi | Formalaşdırılan bələdiyyələrin sayı | Seçilmiş üzvlərin sayi |
|---|---|---|---|
| 1 | 12.12.1999 | 2667 | 20454 |
| 2 | 17.12.2004 | 2731 | 20346 |
| 3 | 23.12.2009 | 1717 | 15591 |
| 4 | 23.12.2014 | 1607 | 14963 |
| 5 | 23.12.2019 | 1606 | 15075 |

## Bələdiyyələrin birləşdirilməsi:

| Birləşmə ili | Birləşmədən əvvəl bələdiyyələrin sayı | Azalma vahidi | Birləşmədən sonra bələdiyyələrin sayı |
|---|---|---|---|
| 2009 | 2735 | 1018 | 1717 |
| 2014 | 1717 | 111 | 1606 |

## Assosiasiyalar 02



ABMA

Ölkə bəldiyyələrinin fəaliyyətinin milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə kömək göstərilməsi və respublikamızda yerli özünüidarənin inkişafına nail olmaq məqsədi ilə 2006-cı ildə bələdiyyələr özlərinin könüllü ittifaqları olan Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrin Milli Assosiasiyalarını yaratmışlar.

- Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası (AŞBMA)
- Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyası (AQBMA)
- Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyası (AKBMA)

# Bələdiyyələrin Milli Assosiasiyaları

**30 noyabr 2006-cı ildə** Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının təsis yığıncağı keçirilmişdir

**15 dekabr 2006- ci ildə** Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının təsis yığıncağı keçirilmişdir

**27 dekabr 2006-ci ildə** Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının təsis yığıncağı keçirilmişdir.

Assosiasiyaların Nizamnamələri **31 yanvar 2007- ci il** tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır

ABMA

Assosiasiyaların tərkibi:

**AŞBMA** Naxçıvan Muxtar Respublikasının Şəhər Bələdiyyələrinin Assosiasiyasını (6 bələdiyyə) və respublikanın digər ərazilərində fəaliyyət göstərən **68 şəhər** bələdiyyəsini özündə birləşdirir

**AQBMA** Naxçıvan Muxtar respublikasının Qəsəbə Bələdiyyələrinin Assosiasiyasını (8 bələdiyyə) və respublikanın digər ərazilərində fəaliyyət göstərən **141 qəsəbə** bələdiyyəsini özündə birləşdirir

**AKBMA** Naxçıvan Muxtar Respublikasının Kənd Bələdiyyələrinin Assosiasiyasını (156 bələdiyyə) və respublikanın digər ərazilərində fəaliyyət göstərən **1227 kənd** bələdiyyəsini özündə birləşdirir

# Strukutur 03



# Assosiasiyaların strukturu



# Xidmətlər 04



## Assosiasiyaların göstərdikləri xidmətlər:

- Maarifləndirici tədbirlərin keçirilməsi
- Bələdiyyə sədrlərinin ümumrespublika toplantılarının keçirilməsi
- Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi və digər beynəlxalq qurumlarda ölkə bələdiyyələrinin təmsil edilməsi, yerli özünüidarəetmə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və təbliği
- Referendumlarda və seçkilərdə təşviqat qruplarının yaradılması
- Mətbuatda bələdiyyələrin hüquq və mənafelərinin qorunması istiqamətində informasiyaların yerləşdirilməsi

- KİV-lərdə bələdiyyələrə həsr edilmiş dəyirmi masalarda bələdiyyələrin fəaliyyətinin işıqlandırılması
- Bələdiyyələrin qabaqcıl iş təcrübəsinin yayılmasına həsr edilmiş konfransların təşkili
- “Bir bələdiyyə - azı bir layihə” təşəbbüsü çərçivəsində bələdiyyələrdə layihələrin kütləviliyinin artırılması
- Bələdiyyə üzvlərinin və qulluqçularının hüquqlarının müdafiəsi ilə bağlı aidiyyəti orqanların qarşısında məsələlərin qaldırılması, hüquqi yardımın göstərilməsi
- Elmi araşdırmalar, tədqiqatlar, monitorinqlər və sosioloji sorğuların aparılması

- Mükafatların, təqaüdlərin təsis edilməsi
- Müxtəlif istiqamətli mərkəzlər, bölmələr, xidmət sahələri, klublar, qruplar, komissiyaların və s. yaradılması
- Şəhər, qəsəbə və kəndlərin iqtisadi, sosial və ekoloji problemlərinin həllinə xidmət edən konfransların, simpoziumların, forumların, dəyirmi masaların, treninqlərin, seminarların, kursların, sərgilərin, xeyriyyə marafonlarının və başqa tədbirlərin təşkil edilməsi
- Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi (BAMS) vasitəsilə bələdiyyələrdə vergi-uçot sisteminin təşkili ilə bağlı texniki metodiki və digər xidmətlərin göstərilməsi
- Bələdiyyələrin Onlayn Xidmət Mərkəzi vasitəsilə bələdiyyələrə yerli vergi və ödənişlərin elektron informasiya vasitələri ilə yığılmasının təşkili

# Beynəlxalq əməkdaşlıq

05



## Assosiasiyaların beynəlxalq təşkilatlarla əməkdaşlığı:

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Assosiasiyaların məsul əməkdaşlarının Fransanın Strasburq şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyytlər Konqresinin 42-ci sessiyasında iştirakı baş tutmuşdur



| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **22-24 mart** |

ABMA

TÜRK DÜNYASI BELEDİYELER BİRLİĞİ
UNION OF TURKISH WORLD MUNICIPALITIES
СОЮЗ МУНИЦИПАЛИТЕТОВ ТЮРКСКОГО МИРА

Assosiasiyaların məsul əməkdaşlarının Türkiyənin İstanbul şəhərində Türk Dünyası Bələdiyyələr Bilriyinin 6-cı ümumi yığıncağında iştirakı baş tutmuşdur



| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **10 iyun** |

ABMA

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Assosiasiyaların məsul əməkdaşlarının Türkiyənin İstanbul şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Monitorinq Komitəsinin iclasında iştirakı baş tutmuşdur




| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **30 iyun** |

ABMA

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Assosiasiyaların məsul əməkdaşlarının Fransanın Strasburq şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin İdarəçilik Komitəsinin iclasında iştirakı baş tutmuşdur




| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **4 iyul** |

ABMA

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Assosiasiyaların məsul əməkdaşlarının Fransanın Strasburq şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyytlər Konqresinin 43-cü sessiyasında iştirakı baş tutmuşdur




| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **25-27 oktyabr** |

CORLEAP
Conference of the Regional and Local Authorities for the Eastern Partnership

Assosiasiyaların məsul əməkdaşlarının Çex Respublikasının Praqa şəhərində Avropa Şurası Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətlə Konfransının 11-ci illik yığıncağında iştirakı baş tutmuşdur



| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **2-4 noyabr** |

ABMA

TDBB

TÜRK DÜNYASI BELEDİYELER BİRLİĞİ
UNION OF TURKISH WORLD MUNICIPALITIES
СОЮЗ МУНИЦИПАЛИТЕТОВ ТЮРКСКОГО МИРА

Assosiasiyaların məsul əməkdaşlarının Türkiyənin Konya şəhərində Türk Dünyası Bələdiyyələr Birliyinin idarə heyətinin iclasında iştirakı baş tutmuşdur



| | |
|---|---|
| **Keçirilmə tarixi:** | **9 dekabr** |

# Fəaliyyət 06



ABMA

## "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, həmçinin dövlət adından yaradılmış publik hüquqi şəxslər:

2.1. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda (bundan sonra – Fəaliyyət Planı) nəzərdə tutulan tədbirlərin icrası barədə hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim etsinlər;

2.2. Fəaliyyət Planının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına elektron formada göndərsinlər.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Baş Prokurorluğuna, Məhkəmə-Hüquq Şurasına, İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Mərkəzi Bankına və Hesablama Palatasına, habelə bələdiyyələrin milli assosiasiyalarına tövsiyə olunsun ki, Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki, Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini mütəmadi təhlil etsinlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

5.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki:

6.1. Fəaliyyət Planının icrasının mütəmadi qiymətləndirilməsini təmin etsin, bu prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlər görsün;

6.2. Fəaliyyət Planının icrası sahəsində görülən işlər barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 aprel 2022-ci il
№ 3199

Azərbaycan Respublikası Prezidentinin
2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir

## Fəaliyyət planında assosiasiyalara aid olan bəndlər:

- Dövlət və bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının təmin edilməsi sahəsində görülən işlərin yekunlaşdırılması
- Yerli özünüidarəetmə sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şəraitin öyrənilərək aradan qaldırılması ilə bağlı əlavə tədbirlər görülməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi
- Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması
- Bələdiyyə aktlarının bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana elektron formada təqdim olunması imkanlarının genişləndirilməsi
- Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi

ABMA

# Video konfrans

ABMA



Azərbaycan Respublikası Milli Məclisinin Regional Məsələlər Komitəsinin və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı ilə 04 may 2022-ci ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş “Tarix yazan imza” mövzusunda videokonfrans keçirilmişdir




Layihənin sonunda 6 bələdiyyə qrand əldə etmişdir

2022-ci ilin aprel ayında BMT-nin Bakı ofisi ilə Milli Assosiasiyaların birgə fəaliyyəti nəticəsində 30-a yaxın bələdiyyənin Şərq Tərəfdaşlığı ölkələrində "İqtisadi İnkişafı dəstəkləyən Bələdiyyə Sədrləri" (M4EG) layihəsi çərçivəsində təlimlərə cəlb edilmişdir layihənin sonunda 6 bələdiyyə qrand əldə etmişdir

Dəyirmi masa



Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi Milli assosiasiyaların təşəbbüsü ilə 2022-ci ilin may ayının 26-da Bakı bələdiyyələri ilə birgə "Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, təxliyyə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi zamanı, həmçinin pandemiya şəraitində FHN Bakı Regional Mərkəzinin yerli özünüidarəetmə orqanları ilə birgə fəaliyyəti" mövzusunda videokonfrans formatında dəyirmi masa keçirmişdir

BOXM




Bələdiyyələrin Onlayn Xidmət Mərkəzi bələdiyyə orqanları tərəfindən "Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi" (BAMS) vasitəsi ilə ərazilərində yerləşən vergiödəyicilərinin düzgün uçotunun aparılması, onların əmlak və torpaq vergilərinin hesablanması, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin yerli ödənişlərinin optimal formada yığılması işini təşkil edir.

BAMS-da yerli (bələdiyyə) vergilər və ödənişlərin mərkəzləşdirilmiş qaydada toplanılması məqsədilə Mərkəzi Bank tərəfindən yaradılmış "Hökumət Ödəniş Portalı"nın (HÖP) imkanlarından geniş istifadə edilir




Ümumi müraciətlərin sayı - 1636
Telefon vasitəsilə daxil olan müraciətlərin sayı - 1171
Rəsmi məktubla daxil olan müraciətlərin sayı - 465

# TƏŞƏKKÜR EDİRİK

